**T Ü R K O L O G İ Y A**

**№ 4** **2018**

**MÜZAKİRƏ VƏ DİSKUSSİYA**
**ОБСУЖДЕНИЯ И ДИСКУССИИ**
**DEBATES AND DISCUSSIONS**

*YUSİF AZMUN (ABŞ)*[*]

# *XALI* SÖZÜ HAQQINDA[1]

**Xülasə**

Türk və iran xalça mütəxəssisləri – ki, əslində, onlar dilçi deyillər – *halı və ya xalı* sözünün mənşəyi haqqında hələ də yekdil fikrə gəlməmişlər. Hər iki tərəf də bu sözün özlərinə aid olduğunu iddia edir. Onların *xalı* sözünün kökü haqqında irəli sürdüyü fikirlər xalq etimologiyasından o tərəfə keçmir. Lüğətlərdə də məntiqli izaha rast gəlmək çətindir. Bəzi fars dili lüğətlərində bu sözün türk mənşəli olduğu göstərilmişdir. XIX əsrə aid Houtsma lüğətində də *kalı* sözünün farscadan alınma olduğu qeyd edilmişdir. Quranın qədim təfsirlərinin birində *xalı – halı* sözünün əski forması "döşək" mənasında *kalıŋ* kimi verilmişdir. Bu söz dəri və tacik dillərində *ŋ* səsi olmadığına görə *kalın* şəklinə düşmüşdür. Buradan aydın olur ki, *halı* sözü *kalıŋ* > *kalı* > *halı* kimi bir prosesin nəticəsində meydana çıxmışdır. Türk dilində, xüsusilə də oğuz dilində *k* səsinin *h* səsinə çevrilməsi mümkündür: *kanı* > *hani, kaçan* > *haçan, katar* > *hatar (türkmən)* kimi.

Fars dilində xalıya *tənbəsə* deyilir. Bu söz ərəb dilində *tanfəsə* şəklini almışdır. Orta fars dilində də zərif, nazik xalıya *bōb* deyilmişdir. Fars dilində *qālī* şəklində tələffüz edilən *xalı* sözü türk dilindən keçmişdir. "Xalı" mənasında qədim türk dilində *küwüz, köwüz* və *köwür* kimi sözlərdən istifadə edilmişdir. Rus dilindəki *kovyor* sözünün də bunlardan törədiyini öyrənirik. Bu sözlərin kökünü araşdıranda onların *qopuz* sözündən meydana gəldiyini görürük. Xalça mütəxəssisləri musiqi ilə xalı arasındakı əlaqə haqqında çox yazırlar, ancaq konkret nəticəyə gələ bilmirlər. Bu yazıda qeyd edilən mövzu dil aspektindən araşdırılmışdır. Elə türkmənlərin hanası da bir musiqi alətinə oxşayır və musiqi aləti kimi qurulur, yaxud köklənir. "Hana" mənasına gələn *qurama* sözü də *qurmaq, kökləmək* sözləri ilə bağlıdır.

**Açar sözlər:** *xalı, türk dili, fars dili, qopuz, musiqi*.

Xalça haqqındakı ilk araşdırmalar XIX əsrdə Rusiyada işıq üzü görmüşdür. Bu nəşrlər XX əsrin əvvəllərində Avropa dillərinə də çevrilmişdir. 1946-da V.Q.Moşkovanın türkmən xalçaları haqqındakı araşdırmaları çap edildikdən iki il

---

[*] ABŞ, Arizona, elmlər doktoru, dosent. E-mail: yusufguzin@gmail.com

[1] Azərbaycan dilinə tərcümə edən: Lefke Avropa Universitetinin müəllimi dosent Nazim Muradov.

sonra alman dilinə də çevrilib nəşr edilmişdir. V.Q.Moşkovanın Türkmənistanın müxtəlif yerlərində qələmə aldığı qeydləri də Rusiyada dərc ediləndən sonra, 1977-ci ildə “Die Teppiche der Völker Mittelasiens” adı ilə almanca çap olunmuşdur. Bu əsər Avropa xalça mütəxəssislərini türkmən xalça terminologiyası və daha sonra digər türk xalqlarının xalça terminləri ilə tanış etdi.

V.Q.Moşkova türkməncə bilmədiyi üçün bir çox terminləri yanlış qeyd etmişdir. Təəssüf ki, bu yanlış terminlərdən bu gün geniş istifadə edilir. Məsələn, türkmən xalçasının *gȫl* naxışı *qul* olmuşdur, *gülli gȫl* naxışının adı da Avropa xalça mütəxəssislərinin dilinə *qulli qul* kimi keçmişdir. *Qapılıq* adlı toxuma da yanlış olaraq *kapinuk* şəklinə düşmüşdür. Bu sözün mənası isə “buludlu hava” anlamına gələn *kapanık (qapanıq)* sözü ilə əlaqələndirilir. Əslində, qərb mütəxəssislərini *xalı* sözünün linqvistik xüsusiyyətlərindən çox bu sahənin sənət və texniki yönləri maraqlandırmışdır. Məhz bu məqalədə illərdir müzakirə edilən, mənşəyi haqqında müxtəlif fikirlər səsləndirilən *xalı* sözünün etimologiyası araşdırılmışdır.

Farsca sözlüklərin çoxunda *kālī* (farsca tələffüzü [qa:li:]) sözünün türk mənşəli olduğu yazılır. M.Moin “*Ferhenge-Farsi*” adlı lüğətində “*qa:li: = qa:li:n = ha:li:*” sözünün izah qismində onun Ermənistandakı *Kaliqula* şəhərinin adından gəldiyini bildirir (Moin, 1381 h. ş.: c. II, 2624). M.Moin xalq etimologiyasını andıran bu fikri XII-XIII əsr ərəb coğrafiyaçısı Yaqut Həməvidən götürmüşdür. T.Houtsma “xalı” anlamındakı *köwür* sözünü izah edərkən bunları deyir: **قالى و هو كور بالتركمانى ماخوذ من الفارسى** (*köwür, kāli we huwe bi`t-turkmāni, mə`xūz min-əl-fārsi*) “*kövür* “xalı” anlamına gəlir, o da türkməncədir və farscadan alınmışdır” (Houtsma, 1894: 16). C.Klauson bu sözün düzgün yazılışının *köwüz* şəklində olduğunu və mətndə yanlışlıqla *kȫr* kimi getdiyini bildirir (Clauson, 1972: 692). Halbuki *köwür* sözü *köwüz*ün rotatizmə uğramış (r-ləşmiş) şəklidir.

*Xalı* sözünün etimologiyasını araşdırdığını söyləyən iranlı xalça mütəxəssisi A.Hasuri “Signs of Iranian Carpet Weaving Before Bronze Age (İran xalçaçılıq sənətinin Tunc dövründən əvvəlki izləri)” adlı məqaləsində yazır:[2] “Farscada *qali* - *qalin* sözləri orta fars dilində *kalin* şəklində tələffüz edilir və Avestadakı *karaydi* sözü ilə eyni kökdən gəlir. Bu sözlərin kökünün “əkmək, (ağac) basdırmaq” anlamındakı *kar-* feili olduğu aydın görünür. Bu da xalçaçılığın bağ-bağça işləri və əkinçilikdən geri qalmadığı daş dövrünü yada salır.” A.Hasuri məqaləsinin davamında: “*Toxumaq* feili Avesta dilində *wap* sözü ilə ifadə edilir və *karayaon* kimi arxaik xüsusiyyətə malik bir sözün əmələ gəlməsində iştirak edir” deyərək (Hasuri, 2001: 92) ortaya məchul bir fikir atır.

[2] Sitatın tərcüməsi müəllifə aiddir.

A.Hasuri bu mövzuda Milanda keçirilən xalçaçılıq konfransında (sentyabr, 1999) bir məruzə ilə çıxış etmiş, çıxışında isə daş dövrünə aid alətlərdən İranda bu gün də istifadə edildiyini sübut etmək üçün ağac toxmaq işlədən bir türkmən qadının fotosunu göstərmişdir.

A.Hasurinin Avestadan nümunə gətirdiyi *wap*, orta fars dilində *waf* şəklində "toxumaq" anlamına gəlir (Mackenzie, 2009: 151). Müasir fars dilində "toxumaq" feilini bildirmək üçün *bāften* بافتن sözü işlənir. "Xalı" ilə səsləşən heç bir kəlimə bu sözlərdən törəməmişdir. Farscada "hörmək", yaxud "toxumaq" mənasında işlədilən başqa bir feil isə *tənidən* تنيدن sözüdür. Bu feildən törəyən "ip, yaxud tor hörən" mənasındakı *tār-tən* تارتن sözü "hörümçək" deməkdir.[3] Bu sözün kiçiltmə şəkli isə sözün sonuna - *ek* şəkilçisinin artırılması ilə düzəldilən və hərfi tərcümədə "kiçik hörümcək" anlamını verən *tār-tənək* sözüdür. Bu kəlimə farscada arxaikləşmişdir, amma Türkmənistanın ipək istehsalı ilə tanınan Qarrıqala bölgəsində işlənir. Bu gün fars dilində "hörümçək" mənasında ərəb dilindən alınan ankəbūt عنكبوت sözü işlədilir.

*Xalı* məfhumunu ifadə etmək üçün fars dilində, ehtimal ki, *tənidən* تنيدن feilindən törəyən *tənbəsə* sözündən istifadə edilmişdir. Bu söz farscadan ərəb dilinə keçərək *tanfəsə* طنفسه şəklini almışdır (Amid, 1343 h. ş.: c. I., 320). Orta farscada *halı/xalı,* ya da *kalı* sözü ilə səsləşən bir kəlmə yoxdur. Pəhləvi dilində yalnız "zərif xalı" mənasını daşıyan *bōb* kəliməsinə rast gəlinir (Mackenzie, 2009: 281).

*Xalı* məfhumu XIII əsrdə türk dilində yazılan bir Quran təfsirinin əlyazmasında *qalıŋ* şəklində və "döşək" mənasında işlənir (Clauson, 1972: 622). Bu söz tacik dilində *kōlīn,* dəri dilində *kālīn* və fars dilində *kālī* - *qālī* formasına düşmüşdür. Tacik və dəri dillərində *ŋ* səsi *n* səsinə çevrilmişdir. *Kalıŋ* sözü sanki nazik iplərin düyünlənib qalınlaşması mənasını xatırladır. Başqa sözlə, xalılar ərişlə[4] arğacların[5] düyünlənməsindən, yəni şaquli və üfüqi iplərin nizamlı hörgüsü nəticəsində ortaya çıxan düyünlərdən əmələ gəlmişdir.

Əski türk dilində *ip* kəliməsi *yıp,* yaxud *yip* şəklində "incə ip" anlamında işlənmişdir (Clauson, 1972: 870). Bu kəlimə bu gün də türkmən dilində *yüp* şəklindədir. VIII əsrə aid Turfan-uyğur mətnlərində *yipkə* sözü "ip" mənasını bildirmişdir (Clauson, 1972: 875). Bu son kəlimə *ip* sözü ilə "incə, nazik" mənasına gələn *yupka/yuvka* sözünün əlaqəsinə işarə edir və bir mənada xalıda incə iplərin üst-üstə düyünlənib *xalıŋ/ qalın* olduğunu diqqətə çatdırır.

---

[3] Ordubad dialektində (məsələn, Dəstə [və Düylün] kənd şivələrində) "hörümçək"ə "toratan" deyirlər. Bax. *Naxçıvan MSSR-in Dialekt və Şivələri (Azərbaycan Dilinin Naxçıvan Qrupu Dialekt və Şivələri),* Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1962, s. 258

[4] Əriş – xalçada və başqa toxunma mallarda uzununa müvazi gedən əsas iplər.

[5] Arğac – xalçada, gəbədə və ümumiyyətlə toxunan şeylərdə eninə gedən ip.

Fars dilindəki *cācim* جاجيم sözünə gəlincə, nazik və seyrək toxunan kilim növünə türk və türkmən dilində *cicim* deyilir. Bu kəliməyə *cecim* şəklində Azərbaycanın Naxçıvan dialektlərində “tut çırparkən yerə sərilən örtük”, Bakı dialektlərində isə “evdə döşənəcək üçün istifadə olunan yundan toxunan parça” (Naxçıvan dialektləri, 1962: 272) anlamında təsadüf olunur. Biz bu sözün qədim türk dilində “çözmək” anlamına gələn *çeçmək* feilindən düzələn *çeçim* ismi olduğunu düşünürük. Qədim türk dilində چ (ç) hərfinin əlifbaya salınmasından əvvəl *ç* səsi ج (c) ilə yazılırdı və oxunurdu. Buna görə də *çeçim sözü cecim* ججيم şəklində yazılmışdır. Beləcə bu söz türklər tərəfindən *cicim* şəklində oxunmuşdur. Fars dilində əvvəllər açıq *[e]* səsi *[ə]*, yaxud fəthə, bəzən də əliflə göstərilirdi. “*Türkmən*”in “*turkmān*” تركمان, “*çəlik”in çālīk* چاليک, “*külək*”in *kūlāk* كولاک və monqol mənşəli “*kəkül*” ün *kākul* كاكل şəklində göstərilməsi kimi. Bu son kəlimə türk dilində *kākül* olmuşdur. Çox ehtimal ki, ججيم sözünün fars tələffüzünə uyğun olaraq *[cəcîm]* kimi oxunması geniş yayılandan sonra *cācīm* جاجيم şəklində yazılmışdır. Beləcə, türk dilində yanlışlıqla *cicim* oxunan *çeçim* fars dilində “*cācîm”ə çevrilmişdir.* H.Ərən *cicim* sözünün farscadan keçdiyini fars dilinə aid bir lüğətdən nümunə verərək qeyd etmişdir (Eren, 1999: 71).

Biz monqol və türk dilində “incə, nazik ip” anlamında işlədilən *sicim* sözünün də incə toxunan *cicim* ilə bir əlaqəsi olduğunu düşünürük. İpin incəliyini, sicimin də nazik bir örtük olduğunu diqqətə alsaq və *xalı* sözünün *kalıŋ* > *kalın* > *kalı* > *halı* şəklində fonetik dəyişikliyə məruz qalaraq ortaya çıxdığını qəbul etsək, *xalı* kəliməsinin “incə” mənasının antonim məfhumu kimi meydana gəldiyi nəticəsinə vara bilərik. Naxçıvan dialektlərində “sicim”in “keçi qəzilindən toxunmuş ip” mənasında istifadə edilməsi (Şirəliyev, 1962: 252) də “incəliyin antonimi” (yəni sərtliyin sinonimi) fikrini dəstəkləyir. Xülasə, iplər düyünlənib qalınlaşandan sonra yumşaq olmayan *xalı* ortaya çıxır.

Qədim türk dilində “başlıq pulu” mənasında işlənən *kalıŋ* (türkməncəsi *qalıŋ*) sözü böyük ehtimalla *xalı* ilə sinonimdir. “Kitabi-Dədə Qorqud”un altıncı (Qanlı Qoca oğlu Qan Turalı) boyunda belə bir cümlə var: *Kızıŋ üç cānver kalıŋlığı kaftanlığı vardı* (Tezcan, 2001: 242) // *Ol xızuŋ üç canavar kalıŋlığı kaftanlığı var*-idi (Ergin, 2004: 185). Buradakı *kalıŋ* və *kaftan* əşya adlarıdır, sonlarındakı *-lıq* şəkilçisi də “üç cānver”in müqabilində verilən başlıq olduğunu bildirir. Yəni bu iki sözdən biri – *kalıŋ* kəliməsi *xalı* mənasındadır. Belə ki, türkmənlərin böyük ehtimal ki, oğuzların vaxtından qalan toy adətinə görə gəlin bəy tərəfinin maddi imkanından asılı olaraq ancaq üç, yeddi, yaxud qırx günlük toy boyunca ərinin yanında qalır. Toydan sonra isə ata-ana evinə qayıdan gəlin bir il ərzində ailəsinin və yaxın qohumlarının da köməyi ilə başlıq əvəzi olan *kalıŋı* - *xalını* toxuyur və evi üçün cehiz hazırlıqlarını tamamlamaqla məşğul olur. Bu adət kənd yerlərində yaşayan

türkmənlərin arasında hələ də davam etdirilir. “Başlıq pulu” mənasında çağdaş türk dillərində *kalıŋ, kalin, kalım* və *kalim* sözləri geniş işlənir. Tatar dilində “başlıq pulu” anlamında işlənən *kalım* sözü rus dilinə də keçmişdir (Şipova, 1976: 155-156). “Divani Lüğat-it-Türk”də belə bir cümlə var: *Kalıŋ birse kız alır – Kerek bolsa kız alır* (Atalay, 1999: C. III, 371). (*Cehiz verən qız alar, lazım gəlsə bahalı alar*).

*Kālī,* yaxud farsca tələffüz şəkli ilə *qālī* قالی sözünün fars mənşəli olması mümkün deyil, çünki fars mənşəli söz köklərində *[k]* səsi və *qaf* hərfi ق yoxdur. Həm oğuz qrupu türk dillərinin, həm də bəzi digər türk dillərinin qeyri-türk mənşəli sözləri ilə bağlı bir səs qanununu burada xatırlatmaq faydalı olar. Zənnimizcə, bu xatırlatma *xalı* sözünün bəzi qaranlıq məqamlarını da işıqlandıracaq. Türk dilərində, xüsusilə də oğuz qrupu türk dillərində söz başındakı *[k]* səsi *[h]* səsinə çevrilə bilər: *kanı >hani, kanda isə>handiysə / harda isə, kaçan > haçan* “nə zaman”, *katar > hatar* (türkmən) “sıra” örnəklərində olduğu kimi. “Başlıq pulu” anlamındakı *kalıŋ,* xakas dilində *xalım,* yaxud *xalıŋ,* yakut dilində *xalım* və çuvaş dilində *hulan* olmuşdur (Şipova, 1976: 155-156; Azemoun, 2017: 148). “Xalı”nın çağdaş türk yazı dillərindəki (Azərbaycan, başqırd, qazax, qırğız, özbək, tatar, türkmən, uyğur dilləri və rus dilindəki) qarşılıqları üçün isə bu sözlüyə baxıla bilər (Ercilasun, 1991: 304-305).

H.Ərən *kilim* sözünün farsca olduğunu yazır (Eren, 1999: 243). Halbuki, orta farscada belə bir söz yoxdur. Həmçinin fonetik quruluşuna görə *kalım* və *xalım* örnəkləri *kilim* sözünü xatırladır ki, bu da müstəqil bir araşdırmanın mövzusudur.

Yuxarıdakı mülahizələrə əsaslanaraq *kalıŋ*dan əmələ gələn *kalı* sözünün *[k] > [h]* səs dəyişməsi nəticəsində *halı* (xalı) olduğunu söyləmək mümkündür.

Xalı məfhumu üçün işlədilən ən qədim söz “Divanü Lüğat-it-Türk”də iki yerdə qeyd edilmişdir; 1. “yayqı (sərmə), xalı, kilim kimi şeylər” anlamındakı *kiwiz* (Atalay, 1999: c. I, 366); 2.“yayqı (sərmə), yundan toxunmuş döşək və yayqı kimi şeylər” anlamındakı *küwüz* şəklində (Atalay, 1999: c. III, 164). *Köwüz* sözünün rotatizm nəticəsində dəyişən şəkli *köwür*dür.

“Xalı” mənasında çuvaşca *kəbir* və monqolca *kəbis* sözləri *köwüz, kiwiz* və *köwür* sözlərinin fonetik dəyişikliyə uğramış variantlarıdır. Türk dilində *[z]* səsi *[r]* səsinə, *[p]* səsi *[b],* yaxud *[w]* səsinə çevrilə bilər. Ayrıca *[b]* səsi *[q]* şəklində, *[q]* səsi də həm *[b],* həm də *[w]* səsi şəklində dəyişə bilər. Bu fonetik dəyişmə ehtimallarını diqqətə aldıqda *kopuz* - *qopuz* sözü *kobuz > kowuz* (türkmənlər nəfəsli çalğı aləti olan ağız qopuzuna *qowuz* deyirlər) > *kobur > kowur,* ya da *koquz > koqur* ola bilər. Əski türkcədə və bəzi türk dillərində “xalı” anlamında işlədilən *köwüz, köwür, kəbir* və monqol dilindəki *kəbis* sözü *kopuz* - *qopuz*dan törəmiş sözlərin incə saitli şəkilləri kimi qarşımıza çıxır.

M.Fasmer "Mikkola"ya istinad edərək (*Memoires de la Societe Néophilologiqueá Helsinfors*, Helsinki, 1893, c. I, s. 389), rusca *ковёр* (*kovyor*) sözünün qədim formasının *koqurr* olduğunu yazır (Fasmer, 2009: C. II, 270-271). Bu söz monqolca "qopuz" mənasına gələn *kuqur* > *huqur* ([hu`ur] kimi oxunur) sözünü xatırladır (Lessing, 2003: C. II, 1515). Biz *kopuz / qopuz* kəlməsindən törəyən *köwür*, yaxud *kögür* sözlərinin qədim monqol dilində "qopuz" mənasına gələn *kuqur - ku`ur* olduğunu düşünürük. Qopuz çalana da qədim monqol dilində *ku`urçin* deyilir (Haenisch, 1949: 17). Bu söz farscaya "ud çalan", yaxud "qopuz çalan" anlamında və *kuhūrçī* şəklində keçmişdir (Doerfer, 1963: C. I, 443). Monqol dilində "davul, təbil" mənasına gələn, eyni anlamda cağatay dilində də mövcud olan *köwürkə* də, ehtimal ki, qopuzla bağlıdır. Bu kəlimə yanlış oxunduğu üçün fars dilinə *kəvərkə* گورگه şəklində keçmişdir (Amid, 1343 h. ş.: c. II, 886).

Xalça mütəxəssisləri xalıdakı rəng və naxış harmoniyasını vurğulayaraq xalçanın musiqililiyindən, yaxud musiqi ilə əlaqəsindən tez-tez söz açırlar. Onların çoxu xalça və musiqi terminonologiyasını bir-birindən ayırmamaq fikrinin tərəfdarıdır. Məşhur xalçaşünas dr. C.Tomson (J.Thompson) bu haqda yazır: "Xalçanın ərişlə arğacları nə zaman ağlıma gəlirsə, bir musiqi portesi[6] və onun üzərindəki notlar gözümün qabağında canlanır. Bunlar xalçanın naxışlarına bənzəyir" (Thompson, 1993: 16).

Həqiqətən də, musiqi notlarını andıran düyünlər və ilmələr xalı toxuyanın seçimi və işi ilə özünəməxsus bir nizam əmələ gətirir. Bu nizam türk xalq musiqisi kimi bölgədən-bölgəyə fərqli şəkillərdə özünü göstərir. Çünki xalçaçılıq da musiqi kimi sənətkarın iş zamanı spesifik seçimlərinə, özünəməxsus gedişlərinə, başqa sözlə, şəxsi ifa tərzinə əsaslanan bir sənət sahəsidir.

Xalça ilə musiqinin əlaqəsinə həsr edilmiş olduqca maraqlı bir məqalədə (Naroditskaya, 2005: 25-57) Azərbaycan muğamları ilə xalça arasında fiziki və ictimai bağlara toxunulur. Burada Azərbaycanın Şahnəzərli xalçası ilə Rast muğamı müqayisəli şəkildə araşdırılır. Naroditskaya bu elmi araşdırmasında xalça ilə Rast muğamının paralel təkrarlara, qırılmalara, simmetrik və asimmetrik xüsusiyyətlərə malik olduğunu əsaslandırmağa çalışır, muğamın kişilər tərəfından ifa edildiyini, xalçanın isə qadınlar tərəfindən toxunduğunu nəzərə çatdırır. Göründüyü kimi, Tompson və Naroditskaya xalçanın musiqi ilə əlaqəsindən danışsa da, konkret bir nəticəyə gələ bilməmişlər.

Mərhum Azərbaycan alimi, məşhur kimyaçı-kristalloqraf professor Xudu Məmmədovun da xalçanın dili, onun musiqi ilə əlaqəsi, xalça naxışlarının milli-məhəlli dəyərləri ifadə imkanları haqqında olduqca maraqlı fikirləri, geniş müzaki-

---

[6] Porte – üzərində musiqi notları yazılan beş xətt

rəyə ehtiyac duyulan mülahizələri "*Naxışların yaddaşı*" adlı kitabında əksini tapmışdır (Memmedov, 1992).

**Nəticə:** Bu məqalədə halı - xalı məfhumu dil aspektindən tədqiqata cəlb edilir, xalının ən qədim adının ən qədim türk musiqi alətindən − *qopuz*dan törədiyi araşdırılır.

Burada, quruluşca bir-birindən çox fərqli görünsə də, türkcə *çöyür, cura, sipsi* və qırğız musiqi aləti *sıbızqa*nın adının da *qopuz*dan törədiyini qeyd etmək istəyirik.

Yuxarıda da qeyd edildiyi kimi, qədim dövrdə *qopuz* ilə *xalı* eyni məfhumla ifadə edilmişdir. Ancaq bu məfhumun ilk olaraq *xalı*, yoxsa *qopuz* üçün işləndiyini hələlik dəqiqləşdirə bilməmişik. Onsuz da, görünüş və funksiya baxımından xalça dəzgahı, yəni hana bir musiqi alətinə, məsələn, qopuza bənzəyir. Dəzgahdakı xalçanın ərişləri musiqi alətinin tellərini xatırladır. Fars dilində əriş və sazın telləri mənasında eyni kəlimədən – *tār* sözündən istifadə edilir. Simli musiqi alətlərində telləri saxlayan bir taxta parçası vardır. Buna türk dilində *eşik* deyilir. Əslində isə telləri saxladığı üçün bu taxtanın düzgün adı *eşek* - *eşşəkdir*. Bu termin türkmən dilində indi də işlənir və "sazın kirişinin aşağı tərəfinə qoyulan taxta parça" şəklində açıqlanır (*Türkmen Diliniŋ Sözlügi*, 1962: 822). Fars dilində də ona "kiçik eşşək" mənsına gələn *xərək* خرک deyilir. Azərbaycan dialektlərində yük daşımaq üçün bir inşaat və ya tikinti alətinin adı (Türk dilində "tezkere", rus dilində də "nosilka" məfhumlarının qarşılığı) kimi "xərək" sözündən istifadə edilir.

*Əriş (arış)* və *arğac* sözləri "yük daşımaq" mənasına gələn *ar*- feilindən törəmişdir: *əriş (arış)* xalçada düyünün yükünü çəkir, *arğac* da düyün şəklində *ərişin* üzərinə yüklənir. Türk dilində *argın* (Azərbaycan dilində *yorğun-arğın* sözündə – tərc.) da eyni feil kökündən törəmişdir. Türkmən hanasında da *eşşək* var, *eşşəy*in kənarındakı ipləri gərilmiş vəziyyətdə saxlamaq üçün istifadə edilən dəyənəyə oxşar bir alət də simli musiqi alətindəki burğu ilə eyni funksiyanı yerinə yetirir. Xalça dəzgahı musiqi aləti kimi qurulur, nizamlanır, köklənir, akkord edilir. Xalça dəzgahının türkmən dilində *qurama* adlandırılması da sırf bu səbəbdəndir.





***Türk karikaturaçı rəssam Eray Özbekin xalı və musiqi sənətlərinin əlaqəsinə həsr etdiyi əsəri***

İnsanlar bir-biri ilə hal-əhval tutanda çox önəm verdikləri şeylərdən danışırlar. Səhər yeməyində həmişə düyü yeyən tayvanlı çinlilər "*Sabahın xeyir!*" demək üçün "*Düyünü yedin?*" deyə soruşurlar. Türkmənlər də "*Gurgunmysyŋ?*" (*Qurqunmısan?*) deyə soruşmaqla, əslində, demək istəyirlər ki, "Musiqi aləti kimi köklənmisən, xalı kimi nizamlısan?"

Azərbaycan dilində də bir aləti yararlı hala gətirmək üçün işlədilən "sazlamaq" ("kökləmək" mənasında) sözü yenə musiqi ilə əlaqəlidir. "Kefin kök olması" da, "saz olması" da (türkmən dilində "qurqun"), "nasaz olması" da bir tərəfdən ənənəvi xalça toxuculuğu sənəti və toxucu dəzgahının saz ya da nasaz olması ilə, digər tərəfdən də musiqi anlayışı ilə bağlıdır.

Müəyyən sənətlərə aid işlərin icrasını ifadə edən *etmək* (*eyləmək, eləmək*), *işləmək, hörmək, yapmaq* kimi feillər də insanların həyatında önəmli yer tutur. *Etmək və ya eyləmək,* əslində, "dərini işləmək, aşılamaq, dabbaqlamaq" deməkdir. Türkmən dilindı dəri *eylənir.* Ərəb dilində işlənmiş dəriyə *edim* deyilir. Bu söz *et-* feilindən düzələn bir isimdir.

"Yüksəltmək" anlamında işlənən *hör-* feili həm "hörgü hörmək" (toxumaq), həm də "divar hörmək" hərəkətlərini ifadə edir. "Yapışdırmaq" hərəkətini bildirən *yapmaq* işi inşaat işçilərinin və çörəkçilərin peşəsidir. "*Nasılsın?*" ("*Necəsən?*") sualı Türkiyədə bölgələrdən asılı olaraq fərqli şəkillərdə verilir: Dəriçiliyi ilə tanınan Kilis vilayətində *Nê`doŋ?* (*Nə edirsən?*), müxtəlif istehsal sahələrinə malik Qaziantepdə *N`îşliŋ?* (*Nə işləyirsən?*). Xalçaçılıq və toxuma işləri ilə məşhur Kayserililər bir-birinin əhvalını *N`öryoŋ?* (*Nə hörürsən? / Nə toxuyursan?*) deyə soruşurlar. Kipr türklərinin nəyə görə *N`apaŋ? (Nə yapışdırırsan? Nə yapırsan?*) dediklərini isə tam izah etmək olmur. Çünkü kipirlilər nə çörəkçilikdə, nə də inşaat işlərində tanınıblar. Belə nəticəyə gəlmək olar ki, *N`apaŋ?* sualı türklərin 1571-ci ildən öncəki – Kipr adasında məskunlaşmasından əvvəlki Anadolu həyat tərzinin bir izi, xüsusilə də çəkməçilik sənətinin bir nişanəsi kimi bu gün də yaşayır.

## ƏDƏBİYYAT


1. *Amid, H.* (1343 H. Ş.). *Ferheng-e Amid,* Elmî, Tehran.
2. *Atalay, B.* (1998). *Divanü Lugat-it-Türk,* TDK, Ankara.
3. *Azemoun, Y.* (2017). *Söz Kökümiz Öz Kökümiz,* Gün, Stokholm.
4. *Clauson, G.* (1972). *Dictionary of Pre-Thirteenth Century-Turkish,* Oxford University Press, Oxford.
5. *Doerfer, G.* (1963). *Türkische und MonqolischeElemente in Neupersischen,* Wiesbaden.
6. *Ercilasun, Ahmet Bican* (Komisyon Başkanı) (1991). *Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü (Kılavuz Kitap), I,* Kültür Bakanlığı Yayınları / 1371, Kaynak Eserler Dizisi 54, Ankara.
7. *Ergin, Muharrem* (2004). *Dede Korkut Kitabı,* Türk Dil Kurumu, Ankara.
8. *Fasmer, M.* (2009). *Etimologiçeskiy Slovar Russkogo Yazyka,* Biblo, Moskova
9. *Haenisch, E.* (1939). *Wörterbuch zu Monqol und Ni»una Tbca»an,* Leipzig.
10. *Hasurî, A.* (2000). "Signs of Iranian Carpet Weaving Before the Bronze Age", *Oriental Carpet and Textile Studies VI, IOCC Conference Proceedings,* Milan 1999.
11. *Houtsma, M.T.* (1894). *Ein Türkisch-Arabisch Glossar,* Leiden.
12. *Lessing, F.D.* (2003). (Çevirən Karaağaç, G.), *Moğolca-Türkç Sözlük,* TDK, Ankara.
13. *Mackenzie, D.N.* (2009). *A Concise Pahlavi Dictionary,* Tehran.
14. *Memmedov, Hudu* (1992). *Nakışların Yaddaşı,* Türk Dünyası Araştırmalar Vakfı, İstanbul.

15. *Moin, M.* (1381 H. Ş.). *Ferheng-e Fârsî,* Emîr Kebîr, Təhran.
16. *Naroditskaya, I.* (2005). "Mugam and Carpet Cross-Domain Mapping", Ethnomusicology Vol. 14. No.1.
17. Naxçıvan MSSR-in Dialekt və Şivələri (Azərbaycan Dilinin Naxçıvan Qrupu Dialekt və Şivələri), (1962). Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı (red. M. Şirəliyev), Bakı.
18. *Şipova, Y. N.* (1976). *Slovar Turkizmov v Russkom Yazıke,* Nauka, Alma Ata.
19. *Tekin, Talat vd.* (1995), *Türkmence-Türkçe Sözlük*. Türk Dilleri Araştırmaları Dizisi 18, Simurg Yay., Ankara.
20. *Tezcan, S.* (2001). *Dede Korkut Oğuznameleri Üzerine Notlar,* YKY, İstanbul.
21. *Thompson, J.* (1993). *Carpets,* Hong Kong.
22. *Türk Dil Kurumu,* (1998). *Türkçe Sözlük,* I. c., Ankara.
23. *Türkmen Diliniŋ Sözlügi* (1962). TSSR Ylymlar Akademiýasynyŋ Neşriýaty, Aşgabat.

*Юсиф Азмун (США)*

## О слове «*xalı*» (ковер)

### Резюме

Турецкие и иранские специалисты по коврам, не являющиеся языковедами, до сих пор не пришли к единому мнению о происхождении слова *halı* - *xalı*. Каждая из сторон считает, что слово принадлежит ей. Их утверждения относительно корня слова *xalı* не выходят за рамки народной этимологии. В словарях также нелегко найти логическое объяснение этому. В некоторых словарях персидского языка указывается на тюркское происхождение этого слова. А в словаре «Houtsma» XIX века утверждается, что слово *qalı* заимствовано из персидского языка. В одном из древних толкований Корана устаревшая форма слова *kalı/halı* была интерпретирована как *kalıŋ* в значении «матрац, тюфяк». Это слово на таджикском и дари употребляется в форме *kalın,* т.к. в этих языках не существует звука *ŋ*. Становится ясно, что слово *halı* - *xalı* появилось в виде *qalıŋ* > *qalı* > *halı* в результате определенного процесса. В тюркских, а в особенности огузских, языках, возможен переход звука *k* в звук *h,* к примеру, *kanı* > *hani, kaçan* > *haçan, katar* >*hatar (туркменский).*

На персидском языке слово ковер (*xalı)* звучит как *tənbəsə*. Это слово по арабски употребляется в форме *tanfəsə*. В средние века нежные, тонкие ковры назывались *bōb*. Слово, произносимое на фарси в виде *qālî,* происходит от тюркского *xalı*. В значении «ковер» в древнетюркском языке использовались слова *küwüz, köwüz* и *köwür*. Слово «ковер» в русском языке тоже происходит от них. При исследовании корней этих слов выясняется, что все они исходят от слова *qopuz*. Специалисты по коврам очень много пишут о связи ковров и музыки, хотя все еще не могут прийти к единому решению. В данной работе тема рассматривается с точки зрения языкового аспекта. *Хана* у туркмен очень напоминает музыкальный инструмент и настраивается так же. Слово *qurama* также связано со словами *строить, настраивать (qurmaq, köklәmәk).*

**Ключевые слова:** *xalı, тюркский, персидский, гопуз, музыка.*

*Joussef Azemoun (USA)*

## On the Word "Xalı" (Carpet)


### Abstract

Not beeing a linguist, Turkish and Iranian specialists on carpets haven't come to a unanimous argeement about the origin of the word *halı-xalı* (carpet). Each considers the word to belong to him. Their assertions concerning the root of the word *xalı* are within the limits of the folk etymology. It is not easy to find a logical explanation to it in the dictionaries either. In some Persian dictionaries the word is shown of the Turkic origin. But in the dictionary "Houtsma" of the XIX e. the word *kalı* is confirmed to be borrowed from the Persian language. In one of the ancient explanations of the Kuran the oldest form of the word *qalı/halı* was interpreted as *kalıŋ* in the meaning of "mattress". This word in Tajik and Dari is used in the form of *qalın* as in these languages there is no sound "*ŋ*". It becomes clear that the word *halı-xalı* appeared in the form of *kalıŋ >kalı >halı* in the result of a definite process. In Turkic, especially in Oghuz languages, the transition of the sound *q* to *h* is possible, for example, *kanı > hanı, kaçan >haçan, katar > hatar (Turkmen).*

In the Persian language the word "carpet" (xalı) sounds as tənbəsə. This word in Arabic is used as tanfəsə. In the Middle Ages tender and thin carpets were called *bōb*. The word, which is pronounced in the form of *qālī* in Persian originates from Turkic *xalı*. In the Old Turkic language in the meaning of "carpet" the *words küwüz, köwüz and köwür* were used. The Russian word "kobep" also originates from them. When studying the roots of these words we learn that all of them originate from the word *qopuz*. Carpet specialists write about the connection of carpets and music very much, although they can't come to a conclusion. In the given article the problem is considered from the linguistic point of view. "Hana" in Turkmen is a musical instrument and is set so. The word *qurama* is also connected with the words *qurmaq* (to build), *kökləmək* (to set) (to tune).


**Key word:** *xalı, Turkic, Persian, qopuz, music.*